STRENGTHENING AZERBAIJAN'S "SOFT POWER" POTENTIAL AFTER THE SECOND KARABAKH WAR

Mahammad Akberov[1]

UDC: 327.39; 94(479.24)
LBC: 66.4;63.3(5 e)64
HoS: 45
DOI: 10.33864/2790-0037.2025.v6.i1.22-41

Keywords:

Second Karabakh War, South Caucasus region, Global Soft Power Index, Green energy, Irredentism, Organization of Turkic-Speaking States (OTS)

ABSTRACT

The great victory achieved in the Second Karabakh War not only increased Azerbaijan's opportunities for geopolitical influence in the region, but also created a serious basis for enhancing the role of soft power potential in projecting its national power. Having become the leading country in the South Caucasus, Azerbaijan has made significant progress in the global power index. The article examines the natural potential of the territories liberated from occupation, the rich potential of the country's green energy, the intensification of multi-vector foreign policy and active diplomacy, the transformation of Turkish identity into a geostrategic vector and the rise of organizational potential, the Zangezur Corridor - its connection with military-political and geo-economic processes is justified.

[1]. Ph.D. in Philosophy, Military Scientific Research Institute; Baku, Azerbaijan
E-mail: court.akberov@gmail.com
https://orcid.org/0009-0007-6863-9707
To cite this article: Akberov, M. [2025]. Strengthening Azerbaijan's "Soft Power" Potential After the Second Karabakh War. *History of Science journal*, *6*(1), pp.22-41.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.22-41

Article history:
Received: 08.12.2024
Accepted: 28.02.2025

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA AZƏRBAYCANIN "YUMŞAQ GÜC" POTENSİALININ MÖHKƏMLƏNMƏSİ

Məhəmməd Əkbərov[1]

UOT: 327.39; 94(479.24)
KBT: 66.4;63.3(5 e)64
HoS: 45
DOI: 10.33864/2790-0037.2025.v6.i1.22-41

Açar sözlər:

İkinci Qarabağ müharibəsi,
Cənubi Qafqaz regionu,
Qlobal Yumşaq Güc indeksi,
Yaşıl enerji,
İrredentizm,
Türkdilli Dövlətlər Təşkilatı (TDT)

ANNOTASİYA

İkinci Qarabağ müharibəsində əldə edilmiş möhtəşəm qələbə Azərbaycanın nəinki regionda geosiyasi təsir imkanları artırıb, həmçinin onun milli gücünün layihələndirilməsində yumşaq güc potensialının rolunun artmasına ciddi zəmin yaradıb. Cənubi Qafqazın lider ölkəsinə çevrilən Azərbaycan qlobal güc indeksində xeyli irəliləməyə nail olub. Məqlədə postmüharibə dövründə Azərbaycanın "yumşaq güc" potensialının artmasına imkan verən tendensiyalar qismində işğaldan azad edilmiş ərazilərin təbi potensialı, ölkənin zəngin yaşıl enerji potensialı, çoxvektorlu xarici siyasətin və proaktiv diplomatiyanın fəallaşması, türk identikliyinin geostrateji vektora çevrilməsi və təşkilatlanma potensialının yüksəlməsi, Zəngəzur dəhlizinin regionda hərbi-siyasi və geoiqtisadi proseslərlə asossiasiyası əsaslandırılıb.

[1]. Fəlsəfə üzrə fəlsəfə doktoru,
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu; Bakı, Azərbaycan
E-mail: court.akberov@gmail.com
https://orcid.org/0009-0007-6863-9707

Məqaləyə istinad: Əkbərov, M. [2024] İkinci Qarabağ Müharibəsindən Sonra Azərbaycanın "Yumşaq Güc" Potensialının Möhkəmlənməsi. *History of Science jurnalı, 6*(1), səh.22-41.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.22-41

Məqalənin tarixçəsi:
Məqalə redaksiyaya daxil olmuşdur: 08.12.2024
Təkrar işlənməyə göndərilmişdir: 06.01.2025
Çapa qəbul edilmişdir: 28.02.2025

History of Science
Vol 6, issue 1, serial 19, 2025, pp.22-41

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

УСИЛЕНИЕ ПОТЕНЦИАЛА «МЯГКОЙ СИЛЫ» АЗЕРБАЙДЖАНА ПОСЛЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

Магомед Акберов[1]

УДК: 327.39; 94(479.24)
ББК: 66.4;63.3(5 е)64
HoS: 45
DOI: 10.33864/2790-0037.2025.v6.i1.22-41

Ключевые слова:

Вторая карабахская война,
Южного Кавказский регион,
Глобальный индекс мягкой силы,
зеленая энергетика,
ирредентизм,
Организация тюркоязычных государств (ОТГ)

АННОТАЦИЯ

Великая победа, достигнутая во Второй карабахской войне, не только увеличила возможности Азербайджана для геополитического влияния в регионе, но и создала серьезную основу для повышения роли потенциала мягкой силы в проецировании своей национальной мощи. Став ведущей страной Южного Кавказа, Азербайджан добился значительного прогресса в глобальном индексе силы. В статье рассматривается природный потенциал территорий, освобожденных от оккупации, богатый потенциал зеленой энергетики страны, активизация многовекторной внешней политики и активной дипломатии, трансформация турецкой идентичности в геостратегический вектор и подъем организационного потенциала, Зангезурский коридор - его связь с военно-политическими и геоэкономическими процессами оправдана.

[1] Кандидат философских наук, Военный научно-исследовательский институт; Баку, Азербайджан
E-mail: court.akberov@gmail.com
https://orcid.org/0009-0007-6863-9707

Цитировать статью: Акберов, М. [2025]. Усиление Потенциала «Мягкой Силы» Азербайджана после Второй Карабахской Войны. *Журнал History of Science, 6(1),* с.22-41.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.22-41

История статьи:
Статья поступила в редакцию: 08.12.2024
Отправлена на доработку: 06.01.2025
Принята для печати: 28.02.2025

1.Giriş

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın yumşaq güc potensialında da dəyişikliklər baş verib. İşğaldan azad edilmiş ərazilərin təbii ehtiyatlarının tam nəzarətə götürülməsi ölkənin yumşaq güc resurslarının artmağına səbəb olub və bu istiqamətdə gələcək perspektivlərə yol açıb. 2021-ci ildə Qlobal Yumşaq Güc İndeksinə daxil edilmiş Azərbaycan son 3 ildə 20 pillə irəliləməyə müvəffəq olub.

Belə bir fikir səsləndirmək yanlış olardı ki, məhz İkinci Qarabağ müharibəsindəki möhtəşəm qələbə Azərbaycanın qlobal yumşaq güc indeksində daxil olmasına zəmin yaradıb. Həmin müharibəyədək Azərbaycan özünün bütün mümkün güc resurslarının inkişafına xüsusi diqqət yetirib. Bu, həm labüd müharibəyə hazır olmaq, həm də ölkədə idarəetməni və insanların həyat səviyyəsini yaxşılaşdırmaq məqsədilə aparılmış davamlı islahatların nəticəsi hesab edilir. Genişmiqyaslı hədəflərə hesablanmış islahatlar beş fundamental nəticə- qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkənin 10 illik sosial-iqtisadi inkişaf nailiyyətləri ilə xarakterizə edilir. Həmin nəticələrin demək olar ki, hamısı ölkənin milli gücünün layıhələndirilməsində "yumşaq güc"ün dominantlığının bariz nümunəsidir.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın əldə etdiyi möhtəşəm qələbə onun milli təhlükəsizlik maraqlarının siyasi, iqtisadi, hərbi, mədəni, informasiya və s. sahələrdə daha etibarlı şəkildə təmin edilməsinə əlverişli zəmin yaradıb. Məqalədə sistem yanaşma, struktur-funksional, həmçinin ümummәntiqi idrak metodlarından: sintez, analiz, induksiya və deduksiyadan geniş istifadə edilib.

İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda yeni geosiyasi reallığın yaranmasıyla nəticələnib. Azərbaycan bütün güc parametrləri üzrə regionun lider ölkəsinə çevrilib. Bu tarixi nailiyyət ölkəni "ağır güc" indeksində - "Qlobal Fire Power" mərkəzinin 60 fərdi amillərə görə göstərici əsasında tərtib etdiyi hesabatda regionda 1-ci, dünyada isə 145 ölkə arasında 59-cu yerdə qərarlaşıb. [1] Həmin hesabatda Gürcüstan 84, Ermənistan isə 102-ci yerdə dayanıb.

"Yümşaq güc" indeksinə gəlincə, onu başa düşmək çox vacibdir, çünki o, qlobal təsəvvürləri formalaşdırır, diplomatik münasibətlərə təsir edir və iqtisadi rifahı artırır. Milli brendlərin qavranılması ilə bağlı dünyanın ən əhatəli tədqiqatı olan Qlobal Yumşaq Güc İndeksi Birləşmiş Millətlər Təşkilatının bütün 193 üzv dövlətini təhlil edir. O, ölkələrin investisiya, ticarət, məşğulluq, təhsil və turizm üçün cəlbediciliyinin ölçüləri haqqında əvəzolunmaz fikirlər təqdim edir. [2] Qlobal Yumşaq Güc İndeksi ölkələrin mövcudluğunun, nüfuzunun və dünya səhnəsinə təsirinin balanslaşdırılmış və hərtərəfli qiymətləndirilməsini təmin edən geniş spektrli tədbirləri özündə birləşdirir. Bunlara aşağıdakılar daxildir: tanışlıq, reputasiya, təsir və 8 əsas yumşaq güc sütunu (biznes və ticarət, idarəetmə, beynəlxalq əlaqələr, mədəniyyət və irs, media və kommunikasiya, təhsil və elm, insanlar və dəyərlər və davamlı gələcək). [3] 2023-cü ilin hesabatında Azərbaycan 20 pillə irəliləyərək 77-ci yerdən 55-ci yerə eneib. Bu göstərici MDB-də 2-ci, Avropa qitəsində isə 29-cu göstəricidir.

"Brand Finance" konsaltinq şirkəti tərəfindən tərtib edilən illik hesabatlar əsasında hazırlanmış ümumi cədvəldə 2021-ci və 2023-cü illər ərzində Azərbaycanın mövqeyinin xeyli yaxşılaşdırılması aşağıdakı cədvəldə öz təsdiqini tapıb. [Bax cədvəl 4.2.1]

[**Qaynaq**: https://brandirectory.com/softpower/nation?country=54]

Cədvəl 4.2.1 – Azərbaycanın yumşaq güc indeksi

	2021 (xal/**dərəcə**)	2022 (xal/**dərəcə**)	2023 (xal/**dərəcə**)
Qlobal Yumşaq Güc İndeksi	31.0/**72**	31.3/77	39.1/**57**
Tanınma	3.1/**93**	3.7/**94**	3.7/**95**
Reputasiya	5.1/**83**	5.3/77	5.4/**96**
Təsir	2.9/**84**	3.0/**67**	4.1/**30**
Biznes və Ticarət	2.3/**70**	2.5/**94**	4.0/**70**
İdarəetmə	1.5/**96**	1.8/**96**	3.3/**57**
Beynəlxalq Münasibətlər	1.9/**68**	2.2/**85**	3.9/**48**
Mədəniyyət və İrs	2.1/**82**	1.9/**100**	3.4/**80**
Mediya və Kommunikasiya	1.9/**71**	2.3/**72**	3.3/**68**
Təhsil və Elm	2.3/**34**	2.6/**43**	3.0/**38**
Əhali və Dəyərlər	2.5/**69**	2.3/**96**	3.6/**88**
Kovid-19 Təsirləri	4.0/**24**	4.3/**39**	
Dayanıqlı Gələcək			4.0/**78**
Birbaşa Təsir	-2.3%/**97**	7.0%/**108**	10.1%/**100**

Həmin cədvəlin tanınma və reputasiya hissəsində cari xal yüksəlsə də indeksə yeni əlavə edilən ölkələrin say çoxluğu səbəbindən dərəcədə irəliləyiş baş verməmişdir. Təsir və birbaşa təsir meyarlarında da fərqlər görünməkdədir. Dolaylı təsir gücü xeyli irəliləyərək 30-cu pilləyə çatsa da, birbaşa təsirdə bir qədər geriləmə mövcuddur. İdarəetmə sahəsində islahatların artması, beynəlxalq münasibətlərdə yeni dövlətlərlə diplomatik əlaqələrin yaradılması bu göstəricini yüksəltmişdir. Buna örnək olaraq, Balkan dövlətlərində SOCAR-ın ofisinin açılması və enerji nəqli imkanlarının artması, Şimali İraq Kürd Muxtar bölgəsi ilə siyasi əlaqələrin qurulması, Qoşulmama Hərəkatına 2019-2023 illəri üzrə sədrlik göstərilə bilər. Yenə təhsil və elm dərəcəsi artmış, dayanıqlı gələcək adlı yeni kateqoriya əlavə edilmişdir. [4]

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın "yumşaq güc" potensialının artması aşağıdakı tendensiyalarla sıx əlaqəli hesab edilə bilər.

2.İşğaldan azad edilmiş ərazilərin təbi potensialının qiymətləndirilməsi

İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin təbii ehtiyatları Azərbaycanın yumşaq gücünun artmasına ciddi təkan verəcəyi istisna edilmir. [5, s.120-121] İşğaldan azad edilmiş ərazilərimiz azərbaycan xalqının maddi və mənəvi sərvətləri ilə zəngindir. Bu mənada, Azərbaycanın "yumşaq güc"ünün artırılmasında Qarabağın cazibə mərkəzinə çevriləcəyi istisna edilmir.

İşğaldan azad edilmiş ərazilərin abadlaşması və təbii ehtiyatlarının səmərəli istifadə yollarının müəyyənləşdirilməsi istiqamətində normativ hüquqi baza genişlənməkdədir. 2021-ci ildən başlayaraq, bu məqsədlə bir sıra mühüm sənədlər qəbul edilib: "Azərbaycan 2030: sosil-iqtisadi inkişafa dair Milli Prioritetlər" (02 fevral 2021), [6] "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair I dövlət proqramı" (16 noyabr 2022-ci il), [7] "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" (22 iyul 2022-ci il) [8] və s.-ri qəbul edilib.

Bu sənədlərdə ümumilikdə işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, bərpa-quruculuq işlərinin aparılması, sosial infrastrukturun qurulması, həmin ərazilərin ölkənin kənd təssərrüfatı sisteminə cəlb edilməsi, təbii ehtiyatlardan effektiv istifadə, bərpaolunan enerji mənbələrinin qiymətləndirilməsi və istifadəsinin genişləndirilməsi, "ağıllı kənd", "ağıllı şəhər" və "yaşıl enerji zonası" kimi konsepsiyaların təşviqi və s. məsələlər hədəf göstəricilər siyahısında yer alıb.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı sənədində nəzərdə tutlan illər üçün ölkənin 5 strateji prioritetlərindən biri işağladan azad olunmuş ərazilərə böyük qayıdış hesab edilir. [6] Bu məqsədə nail olmaq üçün dövlət dayanıqlı məskunlaşmanı təmin etməli və iqtisadi fəaliyyətə reinteqrasiyanı stimullaşdıran tədbirlər hazırlamalıdır.

Ölkənin gələcək inkişafına verəcəyi töhfələri müəyyənləşdirmək üçün həmin ərazilərin iqtisadi resurslarını nəzərdən keçirmək lazımdır. İşğaldan azad olunmuş ərazilər zəngin flora və faunaya malikdir ki, gələcəkdə bu əraziləri turizm üçün cəlbedici edir. Kiçik Qafqazın dağlıq zonası Azərbaycanın iri meşə rayonu kimi xarakterizə edilir. Regionun təxminən 246.7 min hektarlıq ümumi meşə sahəsinin 13197 ha qiymətli meşə sahələri hesab edilir.

Vaxilə bu ərazidə salınmış Bəsitçay Qoruğu və Laçın yasaqlığını göstərmək olar. 1974-cü ildə yaradılmış Bəsitçay qoruğu özünün nadir şərq çinarı ilə məhşur olub. Yaşı 500 ilə çatan həmin ağaclar “Qırmızı Kitab”a daxil edilib. İşğal zamanı Ermənistan həmin nadir ağacları müxtəlif biznes məqsədlər üçün kəsərək məhv etmişdir.

Azad olunan ərazilərdə zəngin su ehtiyatlarının toplanması ölkənin sənayesi və kənd təsərrüfatı üçün müstəsna əhəmiyyət kəsb edir. Məlumdur ki, bütün dünyada ən aktual problemlərdən biri sayılan su qıtlığı iqlim dəyişikliyi ilə sıx bağlıdır və Azərbaycan üçün də önəmlidir. Sirr deyil ki, obyektiv coğrafi səbəblər ölkənin su ehtiyatlarının kasadlığında əsas rol oynanır və əsas mənbələr qonşu ölkələrin ərazilərində yerləşir. Belə olan təqdirdə işğaldan azad olunmuş ərazilərin zəngin su ehtiyatları bu sahədə Azərbaycan məişət, sənaye və kənd təsərrüfatı sahələrində ehtiyaclarının ödənilməsində və meliorasiya imkanlarının artırılmasında mühüm rol oynaya bilər.

1976-cı ildə Ağdərə (hazırda Tərtər) rayonu ərazisində Tərtərçayın üzərində inşa edilmiş, ümumi sututumu 560 milyon m^3, bəndinin hündürlüyü isə 125 m olan Sərsəng su anbarı respublikada ən hündür bəndli su anbarlarından biri hesab edilir. O, ətraf 6 rayonunda (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın torpaq sahəsinin suvarılmasının fasiləsiz təminatını təşkil edir.

Sərsəng su anbarı ilə yanaşı, işğal altında ümumi tutumu 80 mln. m^3 olan digər su anbarları da qalmışdır. Onları da ölkə təsərrüfatına qatmaqla əlavə 15 min hektar torpaq sahəsi suvarmaq mümkündür. Bundan əlavə, Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarı (su anbarının həcmi 1.6 mlrd. km) 75 min hektar yeni ərazinin suvarılmasını təmin etmək iqtidarındadır.

Qeyd edilən su anbarlarından savayı, regionda 11 yeraltı şirin su mənbəyinin yerləşdiyi ehtimal edilir və bu, 1 milyon 968 min m3/gün yeraltı şirin su təchizatı deməkdir.

Ölkənin mineral sularının geoloji ehtiyatlarının 39,6%-i işğaldan azad edilmiş ərazilərin payına düşür. Bu ərazilərdə böyük müalicə əhəmiyyəti olan 120-dək müxtəlif tərkibli mineral su yatağı vardır. Bu, gündə 7805 m^3 mineral su təchizatı deməkdir. Bu suların ölkənin rekreasiya imkanlarının artırılmasına öz töhfəsini verəcəyi istisna olunmur. Hələ Sovet dönəmində Kəlbəcərin İstisu müalicivi kurortu SSRİ miqyasında məhşur idi. İşğal dövründə Ermənistan həmin kurortu digər obyektlər kimi yer üzündən silmiş, Gəlbəcərin mineral sularını qablaşdıraraq öz məhsulları adı altında istehsal etmişlər.

Mineral sular həm də içki sənayesi üçün qiymətli məhsuldur. Bu suların istehsalı yaxın gələcəkdə onu ölkə iqtisadiyyatının gəlirli sahəsinə çevirəcək. Beləliklə, regionun mineral su ehtiyatı içki sənayesində yeni emal güclərinin, içki sənayesi/turizm/rekreasiya üçbucağında müasir habın təşkil edilməsinə şərait yarada bilər. [9]

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsində faydalı qazıntı yataqları, qiymətli və nadir metallar, tikinti materialları mühüm yer tutur. 155 müxtəlif növlü faydalı qazıntı yataqları aşkarlanıb: 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9

gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, cad, pefritoid və s.).

Hadir və qiymətli faydalı qazıntı yataqlarına mis-sink filizləri ehtiyatları (Kiçik Qafqazın şərqində Mehmana yatağı) və civə ehtiyatları (Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda) daxildir. Həmçinin bu ərazilər müxtəlif növ tikinti materiallarına malikdir.

Aşağıdakı cədvəldə işğaldan azad edilmiş rayonlarıda mövcud olan faydalı qazıntılar öz əksini tapıb. [Bax cədvəl 4.2.2]

Cədvəl 4.2.2 *– işğaldan azad edilmiş rayonlarıda mövcud olan faydalı qazıntılar*

Rayonun adı	**Faydalı qazıntı növü**
Ağdərə	Qızıl, qurğuşun, sink, mis, mişar daşı, gəc
Şuşa	Üzlük daşı, gil, tikinti daşı
Xocalı	Gil, üzlük daşı, qum-çınqıl
Xocavənd	Üzlük daşı, tikinti daşı
Kəlbəcər	Qızıl, civə, mişar daşı, gil, perlit, qum-çınqıl, tikinti daşları, üzlük daşları, əlvan daşlar (obsidian, oniks, pefritoid, listvenit)
Laçın	Civə, mişar daşı, üzlük daşı, tikinti daşı, gil, qum-çınqıl, pemza, vermukulit, vulkan külü, əqiq, jad
Qubadlı	Mişar daşı, gil, tikinti daşı, üzlük daşı, əlvan daşı
Zəngilan	Qızıl, gümüş, üzlük daşı, əhəng daşı, gil, tikinti daşı, qum-çınqıl
Cəbrayıl	Mişar daşı, gil, qum, sement, gəc, tikinti daşı, kips, ahhidrid, pemza, vulkan külü, əlvan daşlar (yəşəm, xalsədan)
Füzuli	Mişar daşı, gil, qum-çınqıl
Ağdam	Mişar daşı, üzlük daşı, sement xammalı, gil, qum-çınqıl

İşğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi potensialını qiymətləndirərkən bu qənaətə gəlmək olur ki, həmin ehtiyatlar ölkənin gələcək iqtisadi inkişafına öz müsbət töhfəsini verəcək. Həmin bölgələrə investisiya qoyuluşlarını stimullaşdırmaq və sahibkarları bu ərazilərə istiqamətləndirmək üçün təşviqedici vergi və gömrük siyasəti dövlətin diqqət mərkəzində olacaq. Həmin ərazilərdə sahibkarlığın inkişafı nəticəsində həm ölkəmizin ümumi daxili məhsulunun həcmi, həm də dövlət büdcəsinə vergi daxilolmaları artacaqdır. [9]

Bundan əlavə, işğaldan azad olunmuş ərazilərin turizm potensialı olduqca zəngindir, burada turizmin bir çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi və sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar mövcuddur.

İşğaldan azad olunmuş ərazilərdə Azərbaycanın "yumşaq gücü"nü artıracaq mənbələrdən biri də bərpa olunan enerji mənbələridir. Bu problem postmüharibə dövründə Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən birinə çevrilmiş "yaşıl enerji" kontekstində araşdırmaq daha məqsədəuyğun hesab edilir.

3."Yaşıl artım ölkəsi"nə transformasiya

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz geosiyasətinə təsir edən amillər arasında yaşıl enerjinin perspektivləri durmadan artmaqdadır. Ənənəvi enerji mənbələrinin tədricən tükənməsi və onların ətraf mühitə vurduğu ziyanı nəzərə alaraq, dünyanın inkişaf

etmiş ölkələri bərpa olunan enerji mənbələrindən istifadəni günü-gündən artırmaq istiqamətində məqsədyönlü və israrlı siyasət yürüdür. Şübhəsiz bu, ekoloji və iqtisadi qərardan daha çox siyasi səciyyə kəsb edir. Dünyada yaşıl enerjiyə olan tələbatın artması Azərbaycanda da bərpa olunan enerjinin istehsalı və ixracı məsələlərini vacib mövzuya çevirib.

Azərbaycanda yaşıl enerji probleminin nəzəri - konseptual əsasları İkinci Qarabağ müharibəsindən əvvəl hazırlansa da, onun istitutlaşdırılması və beynəlmiləlləşməsi 44 günlük savaşın post-müharibə dövründə özünün pik nöqtəsinə çatdı. Bu problemin institutlaşdırılması müvafiq strukrurun və hüquq-müqavilə bazasının yaradılmasını nəzərədə tutur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr tarixli, 1159 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradıldı və Agentliyin Əsasnaməsi, həmçinin "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanunu təsdiq edildi. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" isə ölkədə enerjidən səmərəli istifadə edilməsi və yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməsini hədəfləyir. [6]

3.1.Azərbaycan alternativ enerji sahəsində yüksək potensiala malik ölkələr sırasındadır. Ölkədə bərpa olunan enerji mənbələrinin quruda texniki potensialı 135 QVt, dənizdə 157 QVt-dır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. [10]

3.2. İşğaldan azad olunan ərazilər zəngin yaşıl enerji potensialına malikdir. Təbii qaz nəqlini və təsdiqlənmiş qaz ehtiyatlarını artırmaq planlarını Azərbaycan yaşıl enerji hesabına təmin etməyə çalışır. Hazırda Azərbaycan Respublikası bərpa olunan enerji sahəsini günəş, külək və hidrogen layihələri ilə inkişaf etdirmək siyasəti həyata keçirir.

Xüsusilə qeyd etmək lazımdır ki, günəş enerjisi layihələri üçün işğaldan azad edilən ərazilər olduqca münasib hesab edilir. Naxçıvan MR-də aşkar edilən günəş radiasiyasından sonra Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli respublikada ikinci ən yaxşı günəş radiasiyasına malikdir. İlkin araşdırmalara görə, relyef, iqlim, şəbəkəyə yaxınlıq, enerji istehsal gücü, nəqliyyat infrastrukturu və digər texniki aspektlərin müqayisəsi nəticəsində Cəbrayıl və Zəngilan rayonları günəş enerjisi layihələri üçün məqsədəuyğun hesab edilmişdir. İlkin araşdırmalar əsasında müəyyən edilib ki, işğaldan azad edilən ərazilərdə, xüsusilə Laçın və Kəlbəcərin dağlıq ərazilərində əlverişli külək potensialı var. Azad edilən ərazilərdə geotermal enerji mənbələrinin mövcudluğu ilə bağlı əvvəllər də müvafiq elmi araşdırmalar aparılıb.

Bundan başqa, bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalı üçün mümkün potensialın qiymətləndirilməsi və bu potensialdan istifadə məqsədi ilə atılacaq addımların və yerinə yetiriləcək tədbirlər üzrə bir sıra işlər həyata keçirilməkdədir. Bərpa olunan enerji mənbələri potensialına malik ərazilərin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi istiqamətində 8 ərazi seçilmişdir. Seçilmiş 3 ərazidə pilot layihələrin həyata keçirilməsi ilə bağlı artıq müvafiq tədbirlər görülür. [10] Bu istiqamətdə 2020-ci ildən Masdar, ACWA Power, bp, Fortescue Future Industries, China Gezhouba Group Overseas Investment, Total Energies, Nobel Energy, A-Z Czech Engineering və Baltech şirkətləri və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə əməkdaşlığa başlanılıb.

Hazırda ölkəmizdə hidroenerji gücü 1159.2 MVt (30 ədəd stansiya, 20-i kiçik su elektrik stansiyası), külək enerjisi gücü 66.1 MVt (8 stansiya, 2-i hibrid), bioenerji gücü 37.7 MVt (2 stansiya, 1-i hibrid), günəş enerjisi gücü 1.9 MVt (12 stansiya, 2-i hibrid) təşkil edir. İki hibrid elektrik stansiyasında (Qobustan və Culfa) ümumi gücü 2,81 MVt olan külək,

3,8 MVt günəş və 0,7 MVt bioenerji olan qurğular quraşdırılmışdır. Naxçıvan Muxtar Respublikasında 39 MVt gücündə günəş elektrik stansiyaları fəaliyyət göstərir. [11, s.36]

İmzalanmış müqavilələr arasında heç şübhəsiz "Xəzər-Avropa İttifaqı enerji dəhlizi" layihəsi xüsusi yer tutur. 17 dekabr 2022-ci il tarixində Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sazişə əsasən, Xəzər dənizində istehsal olunacaq yaşıl enerjinin Avropaya ixracı nəzərdə tutulur. [11, s.36]

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu addım çərçivəsində ötən ilin noyabrında Bakıda keçirilmiş COP 29 beynəlxalq tədbiri göstərmək olar. Bu tədbirin əsas məqsədi iqlim böhranını həll etmək məqsədilə təmiz enerji mənbələrinə keçid və qlobal karbon qazı ifrazını azaltmaq idi. Azərbaycanın neft-qaz şirkəti olan SOCAR-ın Dubaydakı COP28 tədbirində metan tullantılarının sıfıra endirilməsi ilə bağlı könüllü öhdəlik götürməsi ölkəmizin iqlim problemlərinə həssaslığının təzahürüdür.

Ümumiyyətlə, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib. Ölkə 2030-cu ilə qədər bərpa olunan enerji potensialını 30 faizə çatdırmaq və mövcud enerji sistemini şaxələndirmək niyyətində olduğunu elan edib. "Azərbaycan Respublikasının Prezidenti işğaldan azad edilmiş torpaqları "Yaşıl enerji" zonası elan edib və 2022-2026-cı illər üzrə tədbirlər planında bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. [12]

Azərbaycanın gələcək iqtisadi inkişafına yaşıl enerjinin təsirilərini araşdırarkən bu nəticəyə gəlmək olur ki, bərpa olunan enerji ətraf mühiti çirkləndirmir və iqlim dəyişikliyinə səbəb olmur. O bərpa olunur, yəni tükənməzdir, siyasi və iqtisadi amillərdən asılı deyil. Məhz bərpa olunan enerji mənbələri müasir qlobal enerji landşaftının formalaşmasında əsas amilə çevirilib. Artıq Azərbaycanın yaşıl enerji ölkəsinə transformasiya baş verməkdədir. Yaşıl enerjiyə keçid Azərbaycanda ekoloji tarazlığın qorunmasına, tükənən enerji mənbələrinin qorunub saxlanılmasına və Şərqi Avropa ölkələrinin enerji təchizatında rolunun artmasına səbəb olacağı istisna edilmir. Bu əməkdaşlıq həm də Avropa İttifaqının Azərbaycanla daha diqqətli davranmasına, erməni narrativlərinə son qoyulmasına gətirəcək.

3.3.Çoxvektorlu xarici siyasət kursunun möhkəmlənməsi, proaktiv diplomatiya və irredentizm.

Dövlətin beynəlxalq münasibətlərdə ümumi kursu kimi qəbul edilən xarici siyasət diplomatiya ilə həyata keçirilir. Diplomatiya özlüyündə yumşaq gücün ekvivalentidir. O qeyri-hərbi alətlər vasitəsilə qarşıya qoulmuş məqsədə çatmağı nəzərdə tutur. Şübhəsiz, belə diplomatiyanın təsir imkanları ağır güc münasibətlərində qazanılmış üstünlük kontekstində daha məhsuldar olur. İkinci Qarabağ müharibəsinədək Azərbaycanın münaqişəni dinc yolla tənzimləmək niyyəti heç bir nəticə verməmişdir. Lakin həmin müharibədən sonra Azərbaycan qazanılmış qələbə hesabına öz yumşaq gücünü daha təsirli şəkildə həyata keçirməyə müvəffəq olub. Postmüharibə dövründə Azərbaycan sülh gündəliyini əsasən yumşaq güc vasitələri hesabına gerçəkləşdirməyə çalışır və buna nail olmaqdadır. 2021-ci ildən başlayaraq, bu günədək iki-üç dəfə olduqca qısamüddətli zaman kəsiyində Azərbaycan hərbi gücdən istifadə etsə də bunu çəkindirmə məqsədilə etmiş və qarşı tərəfi növbəti güzəştlərə getməyə və sülh gündəliyinə sadiq qalmağa vadar etmişdir. "Yumşaq güc" hesabına Azərbaycan aşağıdakı nailiyyətlərə imza atıb:

- Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaqla, Qarabağ iqtisadi zonasına olan ərazi iddialarından əl çəkmiş, demarkasiya və delimitasiya məsələsində 1991-ci ilin Almaatı bəyannaməsini əsas götürdüyünü bəyan etmişdir;

- Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması Rusiyanın Qarabağ zonasında sülhməramlı fəaliyyətinin davamını sual altına qoymuş və onun çıxarılmasını sürətləndirmişdir. 2024-cü ilin aprelində Ağdamda yerləşən monitorinq mərkəzi öz fəaliyyətini dayandırmış, iki ay sonra isə rus sülhməramlıları Qarabağ iqtisadi zonasını tamamilə tərk etmişdir;
- Azərbaycan sülh gündəliyini çoxvektorlu siyasi kursa sadiq qalaraq davam etdirib. Azərbaycan hərbi sahədə Türkiyə və Rusiya ilə müttəfiqlik müqaviləsi bağlamaqla, rəsmi Ankaranın regionda mövqeyini hərbi nöqteyi nəzərdən de-yure artırmış, Rusiyaya qarşı etibarlı müttəfiq qazanmış, sonuncunun təsir imkanlarını bir qədər məhdudlaşdırmışdır;
- Azərbaycan diplomatiyası İkinci Qarabağ müharibəsində qazandığı qələbəni regionun ümumi təhlükəsizliyinə sərf etmək siyasəti yürüdür. 3+3 formatının yaradılmasına və Zəngəzur dəhlizinin açılmasına səy göstərmək, Orta dəhlizi "Bir yol, bir kəmər" layihəsinin seqmentinə çevrilmək, Araz dəhlizinin fəaliyyətinə start vermək və s. həmin siyasətin əsas vektorları hesab edilir;
- Rusiya ilə bağlanmış hərbi müttəfiqlik sazişi Azərbaycanın Rusiyaya qarşı yumşaq təzyiqlərinin artmasına, onun antiazərbaycan fəaliyyətinə etiraz səsini ucaltmağa imkan vermişdir;
- Ermənistanın Rusiyanın orbitindən çıxmaq cəhdləri Azərbaycanın sülh gündəliyini Rusiya ilə Qərba arasında rəqabət obyektinə çevirib və Azərbaycan diplomatiyasının manevr imkanlarını daha da artırıb;
- Rusiya-Ukrayna müharibəsi Avropa İttifaqının Cənubi Qafqazda hərbi, siyasi və enerji kontekstində fəallaşmasına və Azərbaycan-Ermənistan münasibətlərində vasitəçiliyi ələ keçirməsinə imkan yaradıb. Şarl Mişelin rəhbərliyi altında Brüssel formatında baş tutmuş altı görüş (14 dekabr 2021, 6 aprel 2022, 23 may 2022, 31 avqust 2022, 14 may 2023, 15 iyul 2023) keçirilib.Azərbaycanın sülh gündəliyinin irəliləməsinə əlavə stimul yaratmaqla yanaşı, deokkupasiyanın letitimliyinin tanınmasına və Qarabağ iqtisadi zonasının statusu məsələsinin gündəlikdən çıxarılmasına müsbət töhfə verib;
- Azərbaycan "ağıllı güc"ü sayəsində sülh gündəliyini pozmağa çalışan, hərbi ritorika ilə danışan və uzun müddət həll edilməyən məsələləri asanlıqla yoluna qoymağa müvəffəq oldu. Bura Fransanın Azərbaycanın Qarabağ iqtisadi zonasında erməni separazmini saxlamaq və İranın həmin separatçılara silah ötürmək cəhdlərinin iflasa uğraması, Türkmənistanla mübahisəli Kəpəz yatağının taleyinin həll edilməsi aiddir.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan proaktiv diplomatiyanı inkişaf etdirməkdədir. Bu siyasətin strateji vektorlarından biri regional təhlükəsizlik kontekstində enerji dialoqunun təftişi hesab edilir. Məlumdur ki, XX-XXI əsrilərin başlanğıcında Cənubi Qafqazda baş vermiş geosiyasi transformasiyalarda enerji faktoru yaxından iştirak edib və bu gün də özümü büruzə verməkdədir. İkinci Qarabağ müharibəsindən sonra başlanmış Rusiya-Ukrayna müharibəsi Cənubi Qafqazda yeni geosiyasi reallıqla enerji amili arasında interaksiyanı daha da dərinləşdirib. Belə ki, Rusiya - Ukrayna müharibəsi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına ciddi təsir göstərib. Xüsusilə Rusiyaya qarşı tətbiq edilən sanksiyalar köhnə qitənin enerji təminatında alternativ enerji təçhizatçısı kimi Azərbaycanın önəmini atrırıb. (Xatırladaq ki, 2022-ci ildə Avropa ittifaqı ölkələri Rusiya qazının idxalını150 mlrd. kubmetrdən 80 mlrd. kubmetrdən aşağı səviyyəyə endirmişsə, 2023-cü ildə həmin göstərici 40 mlrd. kubmetr olub. Hələ ki, Avropanın Rusiya qazından birdəfəlik imtina etməsi qeyri mümkün hesab edilir.) 2021-ci ilin iyul ayının 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması bu sahədə atılan mühüm addımlardan biridir. Anlaşma Memoranduma əsasən, 2027-ci ilə qədər Azərbaycan Avropaya göndərilən qazın həcmini iki dəfə artırmağı öhdəlik götürüb. Bu istiqamətdə son iki-üç il ərzində

məqsədyönlü işlər görülməkdədir. Belə ki, 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetrdən bir qədər çox qaz ixrac etmişdirsə, 2023-ci ildə bu rəqəm təxminən 11,8 milyard kubmetrə çatdırılıb. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizinə bərabərdir. [13, s.700]

Həmin memorandum Azərbaycanla Avropa İttifaqı arasında imzalanmış ilk sənəd deyil. Tərəflər 2006-cı ildə Anlaşma Memorandumu və 2011-ci ildə Cənub Qaz Dəhlizi ilə bağlı birgə bəyanat imzalayıb. Azərbaycanın irəli sürdüyü və Aİ tərəfindən dəstəklənən enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişib. Hazırda Azərbaycan 9 ölkəyə "mavi yanacaq" ixrac edir ki, bunun da 7-si Avropa ölkəsidir. Bir tərəfdən Rusiyanın Qərbə doğru ekspansionizminin barışmaz xarakter alması, digər tərəfdən isə Azərbaycanın Avropanın 9 ölkəsinə qaz ixracı Avropa İttifaqını Azərbaycanla münasibətlərini Ermənistana görə korlamaqdan çəkindirir. Bunu, 2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ iqtisadi zonasında həyata keçirdiyi birgünlük antiterror tədbirlərindən sonra baş verən hadisələr fonunda görmək mümkün oldu. Həmin hadisələrdən sonra ABŞ Senatının "2023-cü il erməniləri müdafiə aktı" sənədi qəbul etməsinə, hətta AŞPA ilə Azərbaycan arasında əməkdaşlığın qeyri müəyyən müddətədək dondurmasına baxmayaraq, nə Avropa İttifaqı, nə də ABŞ Azərbaycanla əlaqələrində heç bir məhdudiyyətə getmədi. Əksinə, onlar regionda yaranmış strateji vakkumdan yaralanmağa və sülh prosesində təşəbbüsü ələ keçirməyə çalışırlar.

Şübhəsiz, Qərbin planı regiona daxil olmaq və oranı idarəolunan xaos vəziyyətində saxlamaqdır. Məhz bu nöqteyi-nəzərdən Ermənistana mülki missiyasını yerləşdirmiş Avropa İttifaqı Azərbaycana qarşı insah hüquqları və demokratiya adı altında yumşaq təzyiqlərdən əl çəkməyəcəyi, İranın regiona, xüsusən də Ermənistana təsirlərini zəiflədəcəyi, Rusya və Türkiyənin regionda rolunun artmasına yol verməcəyi təxmin edilir.

İkinci Qarabağ müharibəsinin nəticələri Azərbaycanla bəzi qonşuları arasında neçə illər ərzində davam etmiş siyasi konfrantasiyanın konstruktiv əməkdaşlıqla əvəz olunmasına təkan verdi. Belə ki, 44 günlük müharibənin başa çatmasında təqribən iki ay sonra 21 yanvar 2021-ci il tarixdə Türkmənistanın paytaxtı Aşqabad şəhərində Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizindəki "Dostluq" yatağında karbohidrogen ehtiyatlarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında" Anlaşma Memorandumu imzalandı. Həmin sənədin əldə edilməsi 44 günlük müharibənin nəticələrinin danışıqlar prosesində Türkmənistanın mövqeyinə etdiyi təsirlə sıx bağlıdır. Azərbaycan əldə etdiyi tarixi qələbə ilə Avropa istiqamətində enerji infrastrukturunu qorumaq qabiliyyətini nümayiş etdirdi. [14, s.101]

Türkmənistan üçün Bakı ilə razılaşma ölkənin dərinləşən iqtisadi durğunluğu və valyutanın ucuzlaşması fonunda enerji ixracının bir hissəsinin istiqamətləndirilməsi imkanı deməkdir. [15]

Həmin yataqda kifayət qədər böyük enerji resursları mövcuddur. İlkin qiymətləndirmələrə əsasən, yataq təqribən 60 milyon ton neft, 100 milyard kubmetr təbii qaz ehtiyatlarına malikdir. Qeyd memorandumun Orta Asiya-Xəzər-Cənubi Qafqaz üçün əhəmiyyətini belə dəyərləndirmək olar:

- "Dostluq" yatağından hasil olunacaq enerji məhsullarının Azərbaycan vasitəsilə ilə dünya bazarlarına daşınmasını (hazırda Azərbaycan Cənub Qaz Dəhlizini (SGC) təşkil edən Trans Anadolu Qaz Boru Kəməri (TANAP) və 2021-ci ilin əvvəlində istismara buraxılmış Trans Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə Türkiyə və Avropa bazarlarına təbii qaz tədarük edir) nəzərə alsaq, yaxın gələcəkdə Türkmənistanın da öz qaz və neftinin Azərbaycan üzərindən Avropaya nəqli istisna edilmir;
- indiyədək öz enerji resurslarının ixracını Rusiya, İran və Çin üzərindən həyata keçirən Türkmənistan Azərbaycanın simasında iqtisadi cəhətdən sərfəli alternativ ixrac marşrutuna malik olacaq;

- Azərbaycanın transzitə çevrilməsi Türkmənistanla bərabər, digər Mərkəzi Asiya dövlətlərinin, xüsusilə Qazaxıstan və Özbəkistanın öz enerji ixracının şaxələndirilməsinə böyük töhfə verəcək;
- Azərbaycanın isə nəqliyyat-tranzit ölkə kimi öz önəmini artırmaqla geosiyasi mövqeyini daha da möhkəmləndirəcək və mövcud Anlaşmanın Orta Asiyanın enerji resurslarının Avropa bazarına çıxışının təmin olunması üçün Transxəzər boru kəmərinin tikintisinin reallaşdırılmasına müsbət töhfə verəcək. Ümumilikdə qeyd edilən sənəd nəinki Azərbaycan və Türkmənistanın, ümumilikdə bölgənin gələcək inkişafı üçün böyük perspektivlər vəd edir.
- Azərbaycanla Türkmənistan arasında münasibətlərin normallaşması həm də iki türk dövləti arasında münasibətlərinin ikitərəfli və çoxtərəfli əsasda inkişafına təkan verəcək.

Bundan əlavə, 2021-ci ilin noyabr ayının 28-də Aşqabadda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında Azərbaycanla, İran və Türkmənistan arasında enerji sahəsində imzalanmış üçtərəfli saziş uzun müddət Xəzərin statusu məsələsində ciddi fikir ayrılığı nümayiş etdirmiş bu ölkələr arasında çoxtərəfli münasibətlərdə yeni səhifənin açılmasına dəlalət edir. Müqaviləyə əsasən, Türkmənistandan Azərbaycana İran üzərindən ildə 1,5-2 milyard kubmetrədək qaz ötürüləcək. Bu üçtərəfli saziş İranın 5 əyalətinin təbii qaza olan ehtiyacını ödəyəcək. [16]

Türkmənistandan fərqli olaraq, Azərbaycan-İran münasibətlərində konfrontasiyanın tamamilə aradan götürmək mümkün deyil. Buna İranla Ermənistan arasında tarixi, etnolingvistik, ideoloji və geosiyasi amillər ciddi təsir göstərir. İranı Ermənistanla birləşdirən ümumi məqamlar onların Hind-Avropa dil ailəsinə mənsubiyyəti və türk dünyasına qarşı ortaq maraqları hesab edilir. Bundan əlavə, İran Azərbaycana islam inqilabı konsepsiyasını ixrac etməyə çalışsa da, heç nəyə nail olmayıb. Azərbaycanın İsraillə sıx əməkdaşlığı İranın maraqlarına cavab vermir.

Ermənistanın ərazi bütövlüyünü özünün "qırmızı xətti" hesab etsə də, onun Avropa İttifaqının mülki müşahidə dəstəsini öz ərazisində yerləşdirməsi, ABŞ-la hərbi təlimlər keçirməsi İranın milli və regional təhlükəsizliyinə cavab vermir. İran bir tərəfdən Azərbaycanın, Türkiyənin və türk dünyasının birləşməsindən ehtiyat edir, lakin öz daxilində nəhəng azərbaycan icmasının fəallaşmasına rəvac verməmək üçün Azərbaycanla ikitərəfli münasibətlərini radikal şəkildə korlamağa risk etmir. Məhz bunun nəticəsidir ki, 2023-cü ilin payızında İrəvanın hərbi-siyasi planda total məğlubiyyəti və əsas müttəfiqi Rusiyanın dəstəyini tamamilə itirməsi İranı Ermənistanla xüsusi münasibətlərdən əl çəkməyə, yeni regional nizamla barışmağa və yeni nəqliyyat dəhlizinin (Araz dəhlizi) yaradılmasında iştirak edərək ondan faydalanmağa sövq etdi. [17]

Digər tərəfdən, zəif və məğlub Ermənistanı silahlandırmaqla və Zəngəzur dəhlizinin açılmasına zidd getməklə, Ermənistandan Türkiyənin Cənubi Qafqaza, Xəzər dənizinə və Orta Asiyaya çıxışına sanitar kordonu kimi istifadə etməyə və Azərbaycanın daha da güclənməsinə yol verməməyə çalışır. Məhz bu səbəbdən İran həm Ermənistana, həm də Azərbaycana münasibətdə ikili standart siyasəti yürüdür.

Azərbaycan diplomatiyası Ermənistanın qərbyönümlü meylindən istifadə edərək İranı və Rusiyanı özünə tərəf çəkməyi bacarıb. Türkiyə və Rusiya ilə hərbi mütəffiq olan Azərbaycan İranda azərbaycanlı Məsud Pezeşkiyanın prezident seçilməsindən sonra həmin ölkə ilə münasibətləri daha da dərinləşdirəcəyi istisna edilmir. Ümumiyyətlə Azərbaycan İranın bu ölkəyə qarşı ikili siyasətini yalnız yumşaq güc vasitələri ilə neytrallaşdırır. Həmin vasitələr energetika sahəsində əməkdaşlıq, nəhəng azərbaycan diasporu, Araz dəhlizi və Qərblə məsafəli davranış xətti hesab edilir.

İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi qələbəsi, türk dünyasının birləşməsi, Türkiyənin Qara dəniz - Xəzər hövzəsində təsir imkanlarının artması İranda yaşayan azərbaycanlıların irredentizmini gücləndirəcəyini ehtimal edir. 2022-ci ildə polis tərəfindən qətlə yetirilmiş gənc qadın Məhsa Əmininin ölümündən sonra baş vermiş

 HISTORY OF SCIENCE
2024, vol 6, issue 1, serial 19, pp. 22-41

etirazların bütün ölkəni bürüməsi həm də azərbaycanlıların növbəti irredentizmi üçün bir çağırış idi. Şübhəsiz Azərbaycan İranda öz soydaşlarının irredentizmini yalnız yumşaq vasitələrlə qorumağa üstünlük verir.

İkinci Qarabağ müharibəsindən sonra Türkiyə ilə münasibətlərin strateji tərəfdaşlıqdan hərbi müttəfiq səviyyəsinə yüksəlməsi bütövlükdə Azərbaycanın "ağıllı gücünə" müsbət təsir göstərir, ona qarşı konspirativ planların qarşısını alır, İran, Rusiya və Qərbin təsirlərini neytrallaşdırır, regionda müstəqil, praqmatik və proaktiv siyasət yürütməsini stimullaşdırır.

3.4.İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın yumşaq gücünün artmasına təkan verən amillərdən biri türk birliyinin təşkilatması prosesinin sürətlənməsi [18, s.90] və Avrasiyada geostrateji məhvərə çevrilməsi hesab edilir. İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı tarixi qələbə və Türkiyənin regionda hərbi-siyasi cəhətdən möhkəmlənmək imkanı qazanması türk dünyasının fəallaşmasına və Avrasiyanın Qara Dəniz - Cənubi Qafqaz - Xəzər - Mərkəzi Asiya makroregionunun təsirli güc qütbünə çevrilməsinə zəmin yaradıb. Bir vaxtlar Türkiyə prezidenti Turqut Özalın işlətdiyi "XXI əsr türk əsri olacaq" fikri çoxlarına yuxu kimi görünsə də, bu gün ona skeptik yanaşan demək olar ki yoxdur. Əksinə, bədxahlar onu artıq bəzi ölkələrə qarşı real təhlükə və təhdid kimi dəyərləndirir. Xüsusən də İkinci Qarabağ müharibəsindən sonra türk dövlətlərinin bir araya gəlməsi və siyasi təşkilata çevrilməsi fonunda həmin fikirlər aksiom hesab edilir.

TÜRKSOY (1993-cü ildə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı) və TÜRKPA (2008-ci ildə Türkdilli Ölkələrin Parlament Assambleyası) bazasında yaradılan və 2009-cu ildə Naxçıvanda təsis edilərək təşkilata çevrilən Türkdilli Dövlətlər Şurası (TDŞ) İkinci Qarabağ Müharibəsindən sonra Türk Dövlətləri Təşkilat (TDT) ilə əvəzləndi. Təşkilatın üzvlərinin sayının 4-dən 7-yə yüksəldilməsi, geniş ərazi və əhaliyə, zəngin enerji ehtiyatlarına malik olması, onlar arasında ümumi məhsul ixracının 2016-cı ildə 13,9 milyard ABŞ dollarından 2021-ci ildə 25,9 milyard ABŞ dollarına çatması, həmçinin "Türk Dünyasına Baxış - 2040" sənədinin qəbul edilməsi bu təşkilatın inkişaf perspektivlərindən xəbər verir. [19]

TDT aşağıdakı geosiyasi potensiala malikdir. Birincisi, bu təşkilat geniş coğrafiyanı və əhalini əhatə edir. Avrasiyanın mərkəzi və qərb hissəsində yerləşən türkdilli dövlətlər ümumilikdə 4,73 milyon kvadrat kilometr əraziyə malikdir. Həmin ərazidə yaşayan 170 mln. nəfərin 125 mln.-ı türkdilli əhali təşkil edir ki, bu da dünyaya səpələnmiş türkdilli xalqların 76,2%-ni təşkil edir. Bu fakt TDT-nin dünyada yüksək səviyyədə təmsilçiliyə və böyük səsə malik olmasına dəlalət edir. İstənilən TTD üzvü, həmçinin Azərbaycan mötəbət təşkilatlarda bu amildəm yararlana bilər.

İkinisi, TDT-nin elə bir əraziləri əhatə edir ki, orada müxtəlif ideyalar, panideyalar, geosiyasi sivilizasiyalar qlobal liderlik uğrunda mübarizə aparır. Tarixən dünyanı idarə etməyə qadir imperiyalar, Şərq-Qərb qarşıdurması, Heartland və Rimlənd, avrasiyaçılıq və panturanizm və s. bu ərazilərlə sıx qarşılıqlı təsirdə olub. Müasir dövrdə bu ərazilər dəhliz və enerji oyunlarının episentrində yer alır və tədricən qlobal oyunların aktorlarına çevrilməyə başlayırlar.

Üçüncüsü, Sovet İttifaqının dağılması nəticəsində yaranmış beş TDT ölkəsi Rusiyanın neoimperiya maraqlarından qorunmaq üçün "türk inteqrasiyasına" əks-təsir vasitəsi kimi baxır. Coğrafi mövqeyi, zəngin karbohidrogen ehtiyatları və etnomədəni məzmunu TDT-yə olan marağı artırır. TDT-yə NATO (Türkiyə və Macarıstan), MDB (Azərbaycan+4 Orta Asiya ölkəsi), BRİKS (Azərbaycan bu təşkilata üzv olmaq istəyini bəyan edib), Avropa İttifaqı (Macarıstan), ŞƏT (4 Orta Asiya ölkəsi) kimi nəhəng qurumların maraq dairəsindədir. Bu təşkilatların maraqları hərbi-siyasi, müdafiə və təhlükəsizlik, sosial-iqtisadi, mədəni-humanitar, enerji və nəqliyyat kimi sferaları əhatə edir.

Son bir neçə ildə TDT qlobal oyunların fəal iştirakçısına çevrilməyi bacarıb. Məsələn, TDT-nin 44 günlük müharibədə Azərbaycanın haqq işini, 2022-ci ilin yanvar hadisələri

zamanı Qazaxıstan xalqını və liderini, Kipr türk xalqının öz müqəddəratını təyinetmə hüququnu, Qırğızıstan və Tacikistan arasında sərhəd hadisəsinin sülh yolu ilə həllini, Suriya böhranının siyasi həll yolunu tapmaq üçün "Astana Prosesi" və Türkiyənin Rusiya-Ukrayna müharibəsinin sona çatması, əsirlərin dəyişdirilməsi və "Taxıl Dəhlizi"nin açılması istiqamətində səmimi vasitəçilik səyləri və qətiyyətli mövqeyi diqqətdən yayınmır. [19] TDT-nin beynəlxalq aktora çevrilməsi əsasən "yumşaq güc"ün transregional tətbiqi üzərində qurulub.

TDT-nin geostarteji statusunu artıran amilllər arasında enerji və nəqliyyat-logistika komponentinin rolunu əvəzsizdir. Bu istiqamətdə Transxəzər Nəqliyyat Dəhlizi (Orta Dəhliz) layihəsini ön planda dayanır. Orta Dəhlizin əhəmiyyətini və səmərəliliyini Beynəlxalq Birgə Yük Daşımaları və Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması ilə bağlı sazişlər daha da artırır. Bundan əlavə, Transxəzər Nəqliyyat Dəhlizi (Orta Dəhliz) layihəsi "Bir kəmər, bir yol" layihəsinin seqmentinə çevrilməklə onun gerçəkləşməsində mühüm rol oynamaq iqtidarındadır. Bu təşkilatın inkişafı TDT-nin lideri Türkiyənin Xəzər-Qara dəniz regionunda - Mərkəzi Asiya makroregionunda hərbi-siyasi, sosial-mədəni və enerji və kommunikasiya sahəsində mövqeyini gücləndirməyə qadirdir.

TDT dünyada öz geostrateji statusunu "ağıllı güc"ünü inkişaf etdirməklə artırmağa çalışır. Azərbaycanın 44 günlük müharibədə qələbəsi, Türkiyə ilə Şuşa Bəyannaməsini imzalaması, Azərbaycan Silahlı Qüvvələrinin kiçik türk ordusu modelinə keçidi TDT çərçivəsində hərbi mexanizmləri inkişaf etdirməyə stimul verə bilər.

Bu istiqamətdə praktiki fəaliyyətlər həyata keçirilməkdədir. Şübhəsiz hərbi fəaliyyətlər terrorizmə qarşı mübarizə çərçivəsində həyata keçirilsə də, belə təlimlər təşkilatın hərbi mexanizmlərinin inkişafına yol açır. Misal qismində Türkiyənin İsparta şəhərində Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti, Azərbaycan, Qazaxıstan və Qırğızıstan ordularının hərbçilərinin "21-ci Məskunlaşmış Məhəllələrdə Terroristlərlə Mübarizə Əməliyyat Kursu" çərçivəsində keçirilmiş hərbi təlimlərini qeyd etmək olar. [20]

Türk dünyası ölkələri arasında hərbi yaxınlaşma Mərkəzi Asiya regionunda güc balansını dəyişmək potensialına malikdir. Heş şübhəsiz, Mərkəzi Asiyada balansın dəyişməsi Xəzər-Qara dəniz regionunda geosiyasi vəziyyətə təsirsiz ötüşə bilməz. İranda azəri türklərinin, Krimda isə yerli türklərin fəallaşması və Türkiyə tərəfindən dəstəklənməsi Xəzər-Qara dəniz regionunda qüvvələr nisbətində və dövlətlərarası münasibətlər sistemində ciddi dəyişiklikləri stimullaşdıra bilər.

3.5.Postmüharibə dövründə Azərbaycanın yumşaq gücünün əyani təzahürü qismində dəhlizlər ətrafında gedən çoxtərəfli oyunları göstərmək olar. Azərbaycan Zəngəzur dəhlizinin açılmasına prinsipial məsələ kimi yanaşır və öz israrlı mövqeyini 10 noyabr tarixində imzalanmış Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyannaməsinin (9-cu maddə) ilə əlaqələndirir.

Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsinə Zəngəzur dəhlizi ciddi geosiyasi və geoiqtisadi töhfə verə bilər. İlk öncə ABŞ məşhur Stratfor beyin mərkəzinin bu dəhliz haqqında səsləndirdiyi fikrə nəzər salaq: "Zəngəzur dəhlizinə kim nəzarət edirsə, öz gücünü Türkiyənin Anadoludakı təsir dairəsinə, Rusiyanın Qafqazdakı təsir dairəsinə və İranın əsas ərazilərinə yönəldə bilər". [21, s.198]

Deməli bu dəhlizin geosiyasi mövqeyi Azərbaycan, Türkiyə, İran, Rusiya və Ermənistanın milli maraqlarına birbaşa təsir göstərməklə yanaşı, Cənubi Qafqaz uğrunda ABŞ, ÇXR, Hindistan və s.-nin cəlb olunduğu transregional rəqabəti də stimullaşdırır. Son üç il ərzində İranın həmin dəhlizin açılmasına əks getməsi, Ermənistanın Avropa İttifaqının mülki missiyasını məhz həmin ərazidə yerləşdirməsi, rəsmi İrəvanın "Sülh kəsişməsi" layihəsini alternativ plan kimi irəli sürməsi, ABŞ-ın Yaxın Şərq dəhlizinin yaradılması ideyasını ortaya atması və Hindistan tərəfindən dəstək qazanması, habelə 44 günlük müharibədən sonra Transxəzər Nəqliyyat Dəhlizi (Orta Dəhliz) ilə əlaqəli işlərinn

fəallaşması, həmçinin ÇXR-ın "Bir yol, bir kəmər" layihəsinin Orta dəhlizi özünə bağlaması məhz Cənubi Qafqaza təsir uğrunda gedən yeni oyunlarla əlaqəlidir.

Bu dəhlizın açılması Azərbaycanı öz eksklavı – Naxçıvanla maneəsiz əlaqə yaratmasına, bu məsələdə İrandan kommunikasiya asılılığına son qoymağa, Azərbaycanın Türkiyə və bütövlükdə türk dünyası arasında birbaşa əlaqə xəttinin qurulmasına, bu dəhlizin Transxəzər Nəqliyyat Dəhlizi (Orta Dəhliz) ilə birləşərək onun ÇXR-ın irəli sürdüyü "Bir yol, bir kəmər" üçün ən vacib kommunikasiya arteriyasına çevirməsinə imkan yaradacaq. Belə olan təqdirdə ÇXR-dan başlayaraq Orta Asiya, Cənubi Qafqaz, Türkiyə və oradan Avropaya nəhəng logistik xətt meydana gələcək və TDT ölkələri bu konfiqurasiyada Şərqlə Qərbi birləşdirən əsas əlaqələndirici həlqəyə çevriləcək.

Zəngəzur dəhlizinin açılmasının yubadılaması Cənubi Qafqaz uğrunda mübarizə aparan böyük dövlətlərin maraqlarında sərt asimmetriya ilə bağlıdır. Bu dəhlizin açılması və onun Transxəzər Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) seqmentinə çevrilməsi Türkiyə, Rusiya və ÇXR-ın geosiyasi və geoqitisadi maraqlarına tam cavab verir. Türkiyə bu yolun istismarından Azərbaycana, Xəzər dənizinə, oradan da Mərkəzi Asiyanın türkdilli ölkələrinə maneəsiz çıxış əldə edəcək. Rəsmi Moskva hazırda davam edən Rusiya-Ukrayna müharibəsinə görə məruz qaldığı sanksiya səbəbindən Avropaya öz mallarını məhz həmin dəhliz vasitəsilə rahat keçirə bilər. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatının 9-cu maddəsinə əsasən həmin dəhlizə nəzarətin Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanlarına həvalə edilməsi və bu dəhlizin istifadəsində ÇXR-ın maraqlı olması Rusiyanı Zəngəzur dəhlizinin açılmasında marağını əks etdirir. Həm də Rusiya bu bu dəhlizin şərq qanadından Şimal-Cənub nəqliyyat dəhlizi üçün istifadə edə bilər. Bu dəhliz həm də Rusiyanın Gürcüstana təzyiqi kimi qiymətləndirilir.

Əslində Zəngəzur dəhlizinin əhəmiyyətini Avropa İttifaqı və ABŞ üçün heçə endirmək böyük yanlışlıq olar. Çünki bu dəhliz daima Qərbin dəstək verdiyi Şərq-Qərb transkontinental nəqliyyat arteyarasının tərkib hissəsi kimi çıxış edir. İranın bu dəhlizi "NATO dəhlizi" və ya "Turan dəhlizi" kimi qələmə verməsi fikrimizi təsdiq edir. Sadəcə, 10 noyabr Üçtərəfli bəyanata əsasən bu dəhlizə nəzarətin Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanlarına həvalə edilməsi və həmin dəhlizə ÇXR-ın "Bir yol, bir kəmər" layihəsi kontekstində maraq göstərməsi ABŞ-ın Cənubi Qafqazda mövcud strateji planlarına cavab vermir.

Rusiyanın Gürcüstandakı separatçı fəaliyyəti səbəbindən Moskvanı İrəvanla birləşdirən Abxaziya dəmir yolunun bağlı qalması nəzərə alınarsa, Zəngəzur dəhlizinin açılması Ermənistanın iqtisadi təcridinə son qoymağa, Rusiya və İrana, eləcə də Avrasiya İqtisadi İttifaqı bazarlarına çıxışını bərpa etməyə imkan verəcək. [22, p.3]

Bu dəhliz İrana da geoiqtisadi planda müsbət dividendlər vəd edir. O Ermənistan, Naxçıvan-Türkiyə və oradan da Yaxın Şərqə nəqliyyat yolu əldə edir. Lakin İran Zəngəzur dəhlizinə özünün regionda siyasi rolunun zəifləməsi, Azərbaycan (Naxçıvan) və Ermənistana (44 km-lik sərhəd) təsir inkanlarından məhrum olması kimi dəyərləndirir və Ermənistana bu dəhlizin İrəvanın siyasi suverenliyi üçün təhlükəli olacağını, onun Azərbaycan və Türkiyə arasında məngənəyə düşəcəyini və dəmir yolu keçən ərazilərin işğal ediləcəyi kimi yanlış fikirləri təlqin etməyə çalışır.

Zəngəzur dəhlizinin açılmasına Gürcüstan ehtiyatla yanaşır. Belə ki, uzun illər Ermənistanın işğalçı siyasəti ucbatından Azərbaycanın enerji resurslarını Avropa enerji bazarına çıxaran əsas yol Gürcüstandan keçib. Yeni dəhlizin açılması regionda nəqliyyat-kommunikasiya konfiqurasiyasını dəyişəcəyi və Gürcüstanın tranzit dominatlığına son qoyacağı anlamına gəlir. Lakin Azərbaycan hökuməti Gürcüstanın narahatlığına son qoymaq məqsədilə hər iki dəhlizin xidmətindən istifadə ediləcəyini bəyan etməklə yanaşı, Bakı-Tbilisi-Qars (BTQ) layihəsinə əlavə 100 milyon dollar sərmayə qoyacağını bəyan edib. [21, s.207-208]

Azərbaycan Orta dəhlizin seqmenti olan iki dəhlizdən Türkiyə ilə əlaqələrində alternativ kimi istifadə edəcəyi təxmin edilir. Nəqliyyat dəhlizlərinin şaxələndirilməsi Azərbaycanın maraqlarına tam cavab verir. Zəngəzur dəhlizinə Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanlarının, Araz dəhlizinə İranın nəzarət edəcəyini nəzərə alsaq, BTQ xarici nəzarətdən azad olacaq və bu yoldan hərbi məqsədlər üçün istifadə etmək daha asan olacaq.

Zəngəzur dəhlizinin regional və transregional əhəmiyyətinə toxunduq, onun Azərbaycan büdcəsinə gətirəcəyi daxilolmalar barədə hesablamara nəzər salaq. Hökümətyönümlü İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi regionda nəqliyyat əlaqələrinin açılmasını Bakı-Naxçıvan aviareysləri üçün subsidiyaların 10 milyon dollar azaldacağını təxmin edir. Mərkəzin hesablamalarına görə, regionda birbaşa nəqliyyat əlaqələrinin işə salınması nəticəsində Azərbaycanın ixracı 1,2 milyard manat (700 milyon dollardan çox), qeyri-neft ÜDM-nin 2 faiz, emal sənayesinin 3 faiz, mədənçıxarma sənayesinin isə 2,7 faiz artıracağı gözlənilir. [21]

Bu layihəyə marağın artmasını aşağıdakı statistik rəqəmlərlə müəyyən etmək mümkündür. Qarşıdakı 10 il ərzində Avropa ilə Asiya arasında ticarət dövriyyəsinin həcmi 200 milyard dollar artacağını proqnozlaşdıran “The Times of India” qəzeti yüklərin 10-15 faizinin Zəngəzur dəhlizi vasitəsilə daşınacağı təqdirdə Azərbaycanın ildə 3-3,5 milyard dollar təkcə tranzit gəliri əldə edəcəyini bildirib. [22]

Ötən ilin 6 oktyabrında Azərbaycanla İran arasında Şərqi Zəngəzur iqtisadi rayonunu İran ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası ilə birləşdirən dəhlizin yaradılması haqqında protokol imzalandı. Bəziləri bu dəhlizin Zəngəzur dəhlizinə qarşı yaradıldığını dilə gətirməklə, prezidentin xarici məsələlər üzrə müşaviri Hikmət Hacıyevin “Zəngəzur dəhlizi Ermənistanın mövqeyi üçbatından üçün öz əhəmiyyətini itirib” [21] sözlərinə istinad edirlər. Dərindən təhlil etsək, bu fikirlərin Ermənistanla-İran münasibətlərinə şübhə toxumlarının səpilməsi məqsədi güddüyü qərarına gələ bilərik. Belə ki, İran Ermənistan üçün həyati əhəmiyyət kəsb edən Zəngəzur dəhlizinən zidd getməklə, öz maraqları üçün əlverişli olan Araz dəhlizinin yaradılmasına razılıq verdi. İranın belə eqoist davarışından nəticə çıxarmaq üçün Ermənistana düşünmək şansı verildi. Rusiya tərəfindən atılmış Ermənistan, bu dəfə İran tərəfindən taaleyin axarına buraxılmış oldu. İran da öz növbəsində Ermənistanı Qərblə yaxınlaşmağa, ABL-la birgə təlimlər aparmağa və Avropa İttifaqının mülki missiyasını onun qulağının dibində yerləşdirməsinə görə cəzalandırmış oldu.

Şübhəsiz belə bir dəhlizin yaradılması Azərbaycan üçün qısa müddətli taktiki gediş kimi qiymətləndirilməlidir. Bu dəhliz Zəngəzur ilə müqayisədə Azərbaycanın milli təhlükəsizliyi üçün əlverişli ola bilməz. Belə ki, Araz dəhlizi İrana Cənubi Qafqaza təsir etmək imkanı verir, Naxçıvanla Azərbaycan arasında əlaqəyə nəzarət edir. Bu həm də Azərbaycana qarşı təzyiq alətidir. Münasibətlərdə anlaşılmazlıq yaranacağı təqdirdə İran həmin dəhlizi bağlamaqla Naxçıvanın blokadasını gerçəkləşdirə bilər. Məhz milli təhlükəsizlik mülahizələri baxımdan, Azərbaycanın Zəngəzur dəhlizinin reallaşmasından əl çəkməyəcəyi belə deməyə əsas verir.

4.Nəticə

Məqalənin sonunda aşağıdakı nəticələrə gəlmək olur:

4.1.İkinci Qarabağ müharibəsindəki möhtəşəm qələbə Azərbaycanın Beynəlxal Yumşaq güc indeksinə daxil olmasına və qısa müsdəət ərzində 20 pillə irəliləməsinə səbəb olub;

4.2.Bu müharibədə əldə edilmiş qələbə Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsində “yumşaq güc” vasitələrinin rolunu xeyli artırıb. Belə demək mümkündürsə, post müharibə dövründə Azərbaycanın milli gücünün layihələndirilməsində qeyri-hərbi amillərin rolu kifayət qədər yüksəlib.

4.3.İşğaldan azad olunmuş ərazilərin zəngin təbii ehtiyatları Azərbaycanın iqtisadi (qeyri-neft sektoru) inkişafında yeni mərhələ açıb.

4.4.Azərbaycan özünün bərpaolunan enerji resusrlarını (işğaldan azad edilmiş rayonların təbii potensialları daxil olmaqla) yerli və beynəlxalq döriyyəyə buraxmaqla həm ölkə daxilində enerji istehsalını əlavə mənbələr hesabına artırmaq, həm də Avropaya nəql edilən TANAP-TAP qaz kəmərini əlavə enerji ilə doldurmaq şansı qazanıb.

4.5.Azərbaycan "yaşıl artım ölkəsi"nə çevrilmək istiqamətində nəzəri və praktiki addımları davam etdirməkdədir. Bu istiqamətdə üzərinə götürdüyü öhdəliklərə ciddi əməl edir və beynəlxalq tədbirlərə ev sahibliyi edir. Ötən ilin noyabrında Bakıda keçirilmiş COP-29 buna misaldır.

4.6.İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan çoxvektorlu xarici siyasətini və proaktiv diplomatiyasını inkişaf etdirməyə, bəzi rəqibləri (Türkmənistan və İran) dosta və əməkdaşa çevirməyə, Rusiya-Ukrayna müharibəsinin davam etməsi səbəbindən Avropanın enerji təsərrüfatında əhəmiyyətli oyunçuya çevrilməyə müvəffəq olub.

4.7.Azərbaycanın xarici siyasətində etnik identiklik xətti güclənib. Bu xətt bir tərəfdən türkdilli dövlətlərlə əlaqələrin sıxlaşmasına və instutusional xarakter almasına gətirib, digər tərəfdən Cənubi Azərbaycanda milli özünüdərkin yüksəlişinə zəmin yaradıb.

4.8.Zəngəzur dəhlizinin açılması Azərbaycanın Cənubi Qafqaz və Xəzər dənizi regionunda siyasi, iqtisadi, nəqliyyat-kommunikasiya və logistika inkanlarını artıracaq və region ölkələri arasında iqtisadi ələqələrin genişlənməsinə təkan verəcək.

4.9.Azərbaycan Araz dəhlizindən və BTQ-dən alternativ dəhliz kimi müəyyən məqsədlər naminə istifadə etməkdə davam edəcək.

5.REFERENCES

1. Global Firepower. (2024). *Military strength ranking* [Electronic resource]. Retrieved from https://www.globalfirepower.com/countries-listing.php (In English)
2. Brand Finance. (n.d.). *Global soft power index: The world's most comprehensive research study on perceptions of nation brands* [Electronic resource]. Retrieved from https://brandirectory.com/softpower/ (In English)
3. *Azerbaijan climbs 20 spots in Global Soft Power Index*. (2023, April 3). Azvision.az [Electronic resource]. Retrieved from https://en.azvision.az/news/167895/news.html (In English)
4. Yusubzadeh, N. (n.d.). *Azerbaijan's soft power potential in the international arena*. UNEC Research Foundation. Retrieved from https://www.unectf.org/novruzeli-yusubzade (In Azerbaijani)
5. Akbarov, M. (2023). The impact of modern geopolitical challenges in the South Caucasus on Azerbaijan's "soft power" policy. *National Security and Modern Military Art: Proceedings of the Republican Scientific-Practical Conference Dedicated to the 100th Anniversary of the Birth of National Leader Heydar Aliyev*. Baku: National Defense University, Military Administration Institute, 120–123. (In Azerbaijani)
6. *Azerbaijan 2030: National priorities for social and economic development.* (2021, February 2). (In Azerbaijani)
7. *The first state program on the Great Return to the liberated territories of the Republic of Azerbaijan.* (2022, November 16). (In Azerbaijani)
8. *The socio-economic development strategy of the Republic of Azerbaijan for 2022–2026.* (2022, July 22). (In Azerbaijani)
9. *What does the liberation of our territories promise for the Azerbaijani economy? – COMMENT.* (2020, October 30). *Oxu.az.* Retrieved from https://oxu.az/iqtisadiyyat/erazilerimizin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-serh (In Azerbaijani)

10. Ministry of Energy of the Republic of Azerbaijan. (2024, March 6). *The use of renewable energy sources in Azerbaijan* [Electronic resource]. Retrieved from https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade (In Azerbaijani).
11. Mammadli, Kh. (2023). The role and potential importance of Azerbaijan's green energy resources in the formation of the "Caspian-European Union Energy Corridor." *Geostrategiya: International socio-political, scientific-theoretical journal, 6*(78), 34–40 (In Azerbaijani).
12. Hasanov, I. (2024, January 8). *What is COP29 to be held in Azerbaijan, who will cover the costs, and who will attend? 10 questions answered. BBC News Azerbaijani* [Electronic resource]. Retrieved from https://www.bbc.com/azeri/articles/cpr3vgv5r95o (In Azerbaijani).
13. Hamidova, L. (2024). Azerbaijan's relations with the European Union. *Academic History and Thought Journal, 11*(1), 695–706 (In Azerbaijani).
14. Kondratyev, V. V. (2021). *The Azerbaijan-Turkmenistan agreement on the "Druzhba" field and its impact on the geoeconomics of the Caspian region. Geoeconomics of Energy, 2*(14), 96–110 (In Russian).
15. Shahbazov, F. (2021). *The Second Karabakh War and Caspian Energy.* Retrieved from https://cacianalyst.org/publications/analytical-articles/item/13668-the-second-karabakh-war-and-caspian-energy.html (In English).
16. *A new stage in Azerbaijan-Iran relations.* (2022, April 2). *Respublika.* Retrieved from https://respublika-news.az/az/news/azerbaycan-iran-munasibetlerinde-yeni-merhele (In Azerbaijani).
17. Smagin, N. (2023, October 25). *Choosing transits: Why Iran shifted its focus from Armenia to Azerbaijan. Carnegie Politika* [Electronic resource]. Retrieved from https://carnegieendowment.org/politika/90842 (In Russian).
18. Akbarov, M. (*2023*). The main vectors of Azerbaijan's "soft power" policy after the Patriotic War. *Actual problems of military art. Program of the international scientific-practical conference dedicated to the 100th anniversary of the birth of the national leader Heydar Aliyev.* Baku: National Defense University, *89–92*
19. *Towards a stronger, better-integrated, and more united Turkic world.* (2022, November 12). *AZERTAC.* Retrieved from https://azertag.az/xeber/daha_guclu_daha_yaxsi_inteqrasiya_olunmus_ve_daha_six_birlesmis_turk_dunyasina_dogru-2372813 (In Azerbaijani).
20. *Training of TDT country servicemen held in Turkey.* (2022, November 15). *Bizim Media.* Retrieved from https://bizim.media/az/cemiyyet/104452/herbcilerimiz-turkiyede-beynelxalq-telimlerde-istirak-edir (In Azerbaijani).
21. Chedia, A. R. (2024). *Zangezur Corridor: Economic potential and political constraints. Russia in Global Affairs, 22*(1), 194–216. https://doi.org/10.31278/1810-6374-2024-22-1-194-216 (In English).
22. *The Zangezur corridor will give a big boost to the economic development of the region.* (2022, December 8). *Vergilər.az.* Retrieved from https://vergiler.az/news/economy/20673.html (In Azerbaijani).
23. Baghirov, O. (2021, October). The impact of the opening of the Zangezur corridor on regional transportation and communication lines. *Air Center*. Retrieved from https://aircenter.az/uploads/files/Zangezur%20Corridor.pdf (In English).

ƏDƏBİYYAT

1. Global Firepower. (2024). *Military strength ranking* [Electronic resource]. Retrieved from https://www.globalfirepower.com/countries-listing.php

2. Brand Finance. (n.d.). *Global soft power index: The world's most comprehensive research study on perceptions of nation brands* [Electronic resource]. Retrieved from https://brandirectory.com/softpower/
3. Azerbaijan climbs 20 spots in Global Soft Power Index. (2023, April 3). *Azvision.az* [Electronic resource]. Retrieved from https://en.azvision.az/news/167895/news.html
4. Yusubzadə, N. (n.d.). Beynəlxalq arenada Azərbaycanın "yumşaq güc" (soft power) potensialı. *UNEC Research Foundation*. Retrieved from https://www.unectf.org/novruzeli-yusubzade
5. Əkbərov, M. (2023). Cənubi Qafqazda müasir geosiyasi çağırışların Azərbaycanin "yumşaq güc" siyasətinə təsiri. *Milli təhlükəsizlik və müasir hərb sənəti. Ümummilli lider Heydər Əliyevin anadan olmasinin 100 illiyinə həsr olunmuş respublika elmi-praktik konfransın materialları proqramı.* Bakı şəhəri: Milli Müdafiə Universiteti, Hərbi İdarəetmə İnstitutu, 120-123.
6. *Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər*. (2021, February 2).
7. *Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair I dövlət proqramı*. (2022, November 16).
8. *Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası*. (2022, July 22).
9. Ərazilərimizin azad edilməsi Azərbaycan iqtisadiyyatına nə vəd edir? – ŞƏRH. (2020, October 30). *Oxu.az*. Retrieved from https://oxu.az/iqtisadiyyat/erazilerimizin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-serh
10. Azərbaycan Respublikası Energetika Nazirliyi. (2024, March 6). *Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə* [Electronic resource]. Retrieved from https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade
11. Məmmədli, X. (2023). "Xəzər-Avropa İttifaqı Enerji Dəhlizi"nin yaranmasında Azərbaycanın yaşıl enerji resurslarının rolu və potensial əhəmiyyəti. *Geostrategiya beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal*, *6*(78), 34–40.
12. Həsənov, İ. (2024, January 8). Azərbaycanda keçiriləcək COP29 nədir, xərcini kim çəkəcək, kimlər gələcək? 10 suala cavabda. *BBC News Azərbaycanca* [Electronic resource]. Retrieved from https://www.bbc.com/azeri/articles/cpr3vgv5r95o
13. Hamidova, L. (2024). Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri. *Akademik Tarih ve Düşünce Dergisi*, *11*(1), 695–706.
14. Кондратьев, В. В. (2021). Азербайджано-туркменское соглашение по месторождению «Дружба» и его влияние на геоэкономику Каспийского региона. *Геоэкономика энергетики*, *2*(14), 96–110.
15. Shahbazov, F. (2021). *The Second Karabakh War and Caspian Energy*. Retrieved from https://cacianalyst.org/publications/analytical-articles/item/13668-the-second-karabakh-war-and-caspian-energy.html
16. Azərbaycan-İran münasibətlərində yeni mərhələ. (2022, April 2). *Respublika*. Retrieved from https://respublika-news.az/az/news/azerbaycan-iran-munasibetlerinde-yeni-merhele
17. Смагин, Н. (2023, October 25). Выбирая транзиты: Почему Иран переориентировался с Армении на Азербайджан. *Carnegie Politika* [Electronic resource]. Retrieved from https://carnegieendowment.org/politika/90842
18. Əkbərov, M. (2023). Vətən müharibəsindən sonra Azərbaycanin "yumşaq güc" siyasətinin əsas vektorları. *Hərb sənətinin aktual problemləri Ümummilli lider Heydər Əliyevin anadan olmasinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın proqramı.* Bakı: Milli Müdafiə Universiteti, 89–92.
19. Daha güclü, daha yaxşı inteqrasiya olunmuş və daha sıx birləşmiş Türk dünyasına doğru. (2022, November 12). *AZƏRTAC*. Retrieved from

https://azertag.az/xeber/daha_guclu_daha_yaxsi_inteqrasiya_olunmus_ve_daha_six_birlesmis_turk_dunyasina_dogru-2372813

20. TDT ölkələri hərbçilərinin Türkiyədə təlimləri keçirilir. (2022, November 15). *Bizim Media*. Retrieved from https://bizim.media/az/cemiyyet/104452/herbcilerimiz-turkiyede-beynelxalq-telimlerde-istirak-edir

21. Chedia, A. R. (2024). Zangezur Corridor: Economic Potential and Political Constraints. *Russia in Global Affairs*, *22*(1), 194–216. https://doi.org/10.31278/1810-6374-2024-22-1-194-216

22. Zəngəzur dəhlizi regionun iqtisadi inkişafına böyük təkan verəcək. (2022, December 8). *Vergilər.az*. Retrieved from https://vergiler.az/news/economy/20673.html

23. Baghirov, O. (2021, October). The impact of the opening of Zangezur corridor on regional transportation and communication lines. *Air Center*. Retrieved from https://aircenter.az/uploads/files/Zangezur%20Corridor.pdf